azbadam

# BADAM İSTEHSALI, İXRACATI VƏ İSTEHLAKI ÜZRƏ STATİSTİK MƏCMUƏ - 2021/2022

Son 10 ildə qlobal badam istehsalı artan istiqamətdə davam etməkdədir. Hətta son mövsümdə qeydə alınan azalma belə ümumi artım dinamikasında 2ci yeri (1.6 mln. ton ləpə) yeri tutur (rekord 2020ci ildə qeydə alınıb: 1.7 mln. ton ləpə istehsalı).
Adəti üzrə istehsalda ilk yeri tutan ABŞ bu məhsulun 78%ni qarşılayır. İlk üçlükdə müvafiq olaraq Avstraliya (8%) və İspaniya (7%) yer alırlar.

İxracda da ABŞ böyük üstünlüklə liderliyini qorumaqdadır. Ləpə badam ixracının əsas istiqaməti Avropa (52%), taxta qabıqlı badamda isə Hindistan (65%) və Çin (15%) ön mövqedə qərarlaşıblar. Digər iki yeri də istehsal göstəricisində olduğu kimi İspaniya (ixracın 90%ni Avropa ölkələri təşkil edir) və Avstraliya (ixracın 48%ni Asiya ölkələri təşkil edir) tutur.
Qlobal badam idxalında ənənəvi olaraq Hindistan ilk yerdə mövqe tutub. 2010-2020ci illər aralığında artım 4 dəfəyə qədər təşkil edir (2010 – 42 595 ton, 2020 – 167 827 ton). Daha sonra isə İspaniya (77% artım), Almaniya (28% artım), Çin (100% artım) və İtaliya (123% artım) mövqelənir.

Qlobal badam istehlakı göstəricilərində isə ilk 5 yerdə ABŞ (23% artım), Hindistan (93% artım), İspaniya (56% artım), Çin (3.7 dəfə artım) və Almaniya (15% artım) qərarlaşıblar.






azbadam

# BADAM İSTEHSALI, İXRACATI VƏ İSTEHLAKI ÜZRƏ STATİSTİK MƏCMUƏ - 2021/2022

## QLOBAL BADAM İSTEHSALI

Ləpə miqdarı, ton




Ötən onillikdə artan tendensiyanın ardınca 2021-2022-ci illərdə qlobal badam istehsalı 1,6 milyon tondan çox olmuşdur ki, bu da 2020-2021-ci illər üzrə 1,7 milyon tonluq rekorddan sonra ikinci ən yüksək göstəricidir.

Dünya üzrə məhsul istehsalının 78%-ni qarşılayan ABŞ 2020-2021-ci illər üzrə qlobal təchizat lideridir. Avstraliya və İspaniya müvafiq olaraq 8% və 7% bazar payı ilə ikinci və üçüncü yerdə qərarlaşıb.

Kaliforniya, Avstraliya və İspaniyada badam istehsalının həcmi on il əvvəllə müqayisədə müvafiq olaraq 1,5, 2,5 və 2,4 dəfə artmışdır.

## 2021/22 BADAM İSTEHSALI

Ləpə miqdarı, ton




## 5 İL ƏRZİNDƏ BADAM İSTEHSALININ ORTA GÖSTƏRİCİLƏRİ

Ləpə miqdarı, ton




Mənbə: INC International Nut&DriedFruit

azbadam

# BADAM İSTEHSALI, İXRACATI VƏ İSTEHLAKI ÜZRƏ STATİSTİK MƏCMUƏ - 2021/2022

ABŞ dünya üzrə badam ixracında liderliyini qorumağa davam edir. 2020-ci ildə (yanvar-dekabr), rekord göstərici ilə 922,314 ton qabığı təmizlənmiş badam ixrac edilmişdir, ixracın əsas həcmi Avropa İttifaqı və Birləşmiş Krallığa (52%), əsasən Almaniya və İspaniyaya; Çin, Yaponiya, Cənubi Koreya və Yaxın Şərq (15%) başda olmaqla Asiyaya (21%) yönləndirilmişdir; əsas idxalçılarsa BƏƏ və Türkiyə olmuşdur. 367,980 ton qabıqlı məhsulun ixracı üçün təyinat ölkələri Hindistan (65%) və Çin (16%) olmuşdur.

İspaniyadan qabığı təmizlənmiş badam (95,238 ton) ixracının əsas istiqaməti Aİ və BK (90%), ən iri idxalçılar Almaniya, İtaliya və Fransa idi.

Avstraliyanın qabığı təmizlənmiş badam (52,030 ton) ixracı üzrə başlıca təyinat məntəqələri Asiya (48%), əsasən Çin, başda Almaniya olmaqla Aİ və BK (31%) olmuşdur. Çin və Hindistan müvafiq olaraq 53% və 46% göstərici ilə Avstraliyadan ixrac edilmiş 31,153 ton qabıqlı badamı idxal etmişdir.

## QLOBAL BADAM İXRACI

Ləpə ekvivalenti*/ ton




*Qabığın 35% təşkil etməsinə əsasən qabığı təmizlənmiş+qabıqlı məhsulunun ləpə olaraq hesablanması

## 2020-Cİ İL ÜZRƏ QLOBAL BADAM İSTEHSALI

Ləpə ekvivalenti*/ton




*Qabığın 35% təşkil etməsinə əsasən qabığı təmizlənmiş+qabıqlı məhsulunun ləpə olaraq hesablanması
**Tranzit ölkə

## 5 İL ƏRZİNDƏ BADAM İXRACININ ORTA GÖSTƏRİCİLƏRİ

Ləpə ekvivalenti*/ton




*Qabığın 35% təşkil etməsinə əsasən qabığı təmizlənmiş+qabıqlı məhsulunun ləpə olaraq hesablanması
**Tranzit ölkə

Mənbə: INC International Nut&DriedFruit